Funded by the European Union

Şərqi Avropa Enerji Səmərəliliyi və Ətraf Mühit üzrə Tərəfdaşlıq



İcra müddəti: 01.01.2011 - 30.12.2029

ŞT ölkələri:

Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova, Ukrayna

Aİ-nin maliyyə yardımı: € 94 450 000

İcraçı təşkilat(lar):

EBRD, EIB, NEFCO, CEB, KfW, NIB, WBG

Internet səhifəsi: e5p.eu

Layihənin təsviri:

Şərqi Avropa Enerji Səmərəliliyi və Ətraf Mühit üzrə Tərəfdaşlıq (E5P) Şərq Tərəfdaşlığı regionunda enerji səmərəliliyi və ətraf mühit layihələrinə bələdiyyə investisiyalarının cəlb edilməsi məqsədilə 2009-cu ildə İsveçin Avropa İttifaqına sədrlik etdiyi dövrdə yaradılan 243 milyon avroluq multi-donor və multi-icraedici orqan fondudur. Əvvəlcə yalnız Ukraynada fəaliyyət göstərən Fond 2014-cü ildə öz fəaliyyətini Ermənistan, Gürcüstan və Moldovaya daşıyaraq rəsmi olaraq genişləndirmişdir. 2017-ci ildə bu siyahıya Belarus, 2019-cu ildə isə Azərbaycan da əlavə edildi.

E5P Avropa İttifaqının və Fonddan faydalanan ölkələr də daxil olmaqla 24 ölkədən ibarət qrupun maliyyə ianələrini özündə birləşdirir. Aİ Fondun ən böyük donoru və E5P-nin əsas idarəetmə orqanı olan Donorların Yığıncağının sədridir. AYİB E5P-ni idarə edən təşkilatdır və Fondun idarə olunması üçün bütün maraqlı tərəflərin adından inzibati dəstək göstərir.

Fondun iş prinsipi

E5P-nin investisiya qrantları ənənəvi olaraq bələdiyyə sektorunda müşahidə edilən inkişafa güclü təsir göstərən ətraf mühit layihələrini dəstəkləmək və bazardakı maneələri aradan qaldırmaq üçün iştirakçı İcraedici Orqanların verdikləri kreditlərlə birləşdirilir. İcraedici Orqanlar bunlardır: Avropa Şurası İnkişaf Bankı (CEB), Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB), Avropa İnvestisiya Bankı (AİB), Almaniya İnkişaf Bankı (KfW), Ətraf Mühit üzrə Nordik Maliyyə Korporasiyası (NEFCO), Nordik İnvestisiya Bankı (NİB) və Dünya Bankı Qrupu (DBQ).

Gözlənilən nəticələr:

Meyarlara cavab verən sektorlar

Fond bu layihələr vasitəsilə aşağıdakıları təmin etməyə çalışır:

- Karbon qazı emissiyalarının və digər zərərli istixana qazlarının miqdarının azaldılması
- Enerji səmərəliliyinin artırılması
- Siyasətin işlənib hazırlanması ətrafında dialoqa və tənzimləyici islahatlara dəstəyin verilməsi

Fond indiyədək əsas diqqətini bələdiyyə sektoruna yönəltməklə, mərkəzləşdirilmiş istilik təchizatı, bərk tullantıların emalı, su təchizatı və çirkab suların təmizlənməsi, binaların (məktəblərin, uşaq bağçalarının, xəstəxanaların, habelə yaşayış binalarının) enerji səmərəliliyi, küçələrin işıqlandırılması və şəhər nəqliyyatı sahələrində həyata keçirilən layihələrə dəstək göstərmişdir. Bundan əlavə, dövlət və özəl sektorları təmsil edən müştərilərlə birgə infrastruktur və enerji sektorlarında həyata keçirilən bərpa olunan enerji istehsalı (biokütlə daxil olmaqla), qarşılıqlı əlaqə və resursların səmərəliliyi üzrə layihələr də potensial olaraq meyarlara uyğundur.

Fond həyatın yaxşılaşmasına və sistem dəyişikliklərinə fokuslanır, buna görə də siyasətdə iştirakın güclü komponenti olan layihələrə üstünlük verir. Təkliflər konkret ölkələrin prioritetlərinə uyğun olaraq dəstəyi qəbul edən ölkə və icraedici orqanlar tərəfindən birgə işlənib hazırlanır.